

Məhəmməd İsrafiloğlu,
*Ukrayna*

(əvvəli ötən sayımızda)

# Azərbaycan istiqlalının prometeyi
# Məhəmməd Əmin Rəsulzadə

***Sərdar qayətdə qanı isti bir adam, hərəkəti xeyli cəlddir, danışığı çox ciddidir. Məşrutəpərəstiliyi din dərəcəsində qəvidir."***

***Rəsulzadə hələ iki dəfə də Səttərxanla görüşəcəkdi bundan sonra. Əlbəttə, sonuncusu özünün dediyi kimi həzin oldu. Əmin Bəy İran inqilabının əfsanə ismi Səttərxanın ölmünü də çox böyük kədərlə qarşılamış onu olduqca düzgün xarakterizə etmişdir: "Millətin bətnindən yetişmiş olan bu qəhrəman hər nə qədər avamlığı cəhətdən onun-bunun intriqalarının qurbanı oluyordusa da, fitrətən bir çox məziyyətlərə malik idi." İran məşrutəsinin acı aqibətinə biçilən payın eynilə onun qəhrəmanlarınında taleyinə dönüşməsinə üzülən Rəsulzadə Səttərxana eyni zamanda olduqca yüksək qiymət verərək yazırdı ki: "Bu nöqteyi-nəzərdən Səttar xan İran tarixi təcəddüdünün (yeniləşməsinin- M.İ.) unudulmaz bir simasıdır."***

Rəsulzadənin yazı və məqalələrində İran inqilabıyla bağlı olduqca obyektiv, düşündürücü məqamları vardır. O, yazırdı ki: "g türk inqilabçıları, türk məbusları, türk əncümənləri dediyimizdə, bunların məhz türklük naminə hərəkət etdikləri düşünülməsin. İran türk məşrutiyyətpərvərləri türklüklərini düşünməmdilər, bütün fədakarlığı ancaq iranlılıq və vətənin müştərək naminə icra etmişlərdir."

Çox təəssüf ki, Rəsulzadənin qeyd etdiyi bu xüsus XX əsrdə İranda baş verən inqilablarda eynilə təkrar oldu. İnqilabların hərəkətverici qüvvələri Azərbaycan türkləri olsa da maksimim faydalanan fars şovinizmi, din pərdəsinə bürünmüş şarlatan rejim oldu.

Rəsulzadənin nail olduğu ən böyük başarılarından biri ümmətçilikdən türkçülüyə keçidi sağlamasıydı. Qövmi özünüdərkin yanlış olaraq müsəlman kimliyi üzərində qurulması miliyyət hissini tamamən iflic edən bir amil idi. 1918 ci ildə artıq " Müsavat" firqəsinin fəaliyyəti sayəsində Rusiya müsəlmançılığı anlayışı Rusiya Türklüyülə əvəz olundu. Ümmətçilikdən Türklüyə keçid sağlandı. Bunun ana təməlləri hələ 1915 ci ildə Rəsulzadə tərəfindən atılmışdır. 1915 ci ildə "Açıq söz " qəzetində "Tutduğumuz yol" adlı məqaləsində yazırdı ki: " Sağlam, mətin oynaq bir millət vücuda gətirmək istərsək ,zaman bunu iqtiza(tələb-M.İ.)ediyor ki, mütləq üç əsasa sarılmalıyız Türkləşmək-İslamlaşmaq-Müasirləşmək!". Məhdud mədəni muxtariyyət prinsipinin əksinə olaraq milli məhəlli (ərazi-M.İ.) muxtariyyəti ideyası türk-müsəlman coğrafiyasında müstəqil dövlət olmaq ideyasının yaranmasına səbəb oldu. Bu ideyanın müəllifi birmənalı olaraq Rəsulzadədir. Rəsulzadə eyni zamanda "Dildə-Fikirdə-İşdə" Birlik şüarını ortaya qoyan İsmayıl Bəy Qaspıralının ən sadiq tələbəsidir, milli dövlətləşmə mərhələsini başladan bir novator siyasətçidir.

İttihadi islamın yerinə İttifaqi İslam ideyası bir sözlə möhtəşəmdir, həmin dönəmdə qəbul etdirilməsi ən zor olan bir mərhələydi. Rəsulzadə buna müvəffəq ola bilmişdir. Hətta Orta Asiyada, Türküstanda ( Ə.Z.Vəlidi Toğan və Mirseyid Sultanqaliyev) federal prinsiplər əsasında müstəqil dövlət qurmaq ideyası belə öz qaynağını Rəsulzadədən almışdır. Düzdür Rusiya çatısı altında müsəlman və türklərə azadlıqlar tanınması Qaspıralı başlatmışdı. Amma bunu milli məhəlli muxtaryyət ideyasına çevirib Rusiya Müsəlmanları qurultayında möhtəşəm çıxışlarıyla qalibiyyətə çevirən 33 yaşlı M.Ə. Rəsulzadə oldu. Zəki Vəlidi Toğan bundan özünün " Xatirələr" ində çox böyük qürurla və Rəsulzadənin zəkasını, yüksək natiqlik məharətini övərək bəhs edir. Rəsulzadənin daha bir uzaqgörənliyi klassik Turançılıqdan fərqli olaraq yeni Turançılığa keçidin əsasını qoymasıdır. O, yeni Turançılığı belə təsəvvür edirdi:

***" Bütün türklər öz aralarında böyük dünya federasyonuna qədəm olmaq üzrə bir federasyor yaratmalıdırlar. Yeni Turan, mədəni birlik üzərində təsis edilib, ancaq gələcək birər türk hökumətlərinin federasyonu şəklində təsəvvür oluna bilər. Azərbaycan da bu gələcək Turan silsiləsinin mühüm bir halqasıdır."***

***Rəsulzadə bu fikirləri yüksək tribunadan söyləyəndə tarix 1917-ci ili göstərirdi.***

***Rəsulzadənin yaratdığı " Müsavat" firqəsinin gücünü düşmənləri, hətta daşnak-bolşevik güruhunun başçısı Şaumyan belə etiraf edirdi ki: " Zaqafqaziyada ən zəif siyasi partiya olan, bu inqilab zamanı təşkil edilən, heç bir təşkilatı, heç bir partiya ənənəsi, heç bir hakimiyyəti olmayan, inqilabın əvvəlində heç bir yol oynamayan 'Müsavat" indi Zaqafqaziyada ən güclü siyasi partiyaya çevrilmişdirg Bütün Zaqafqaziyanın taleyini həll edir" ("Bakinski raboçi" 30 may1918-ci il).***

Çox maraqlıdır ki, Rəsulzadə öz dövrünün bütün siyasi firqələri tərəfindən (hətta əks cəbhədə bulanan sosialistlər belə-M.İ.) güclü siyasi bir lider kimi qəbul olunurdu. Hətta hökumətə rəhbərlik etmiş bitərəf Fətəi Xan Xoyski belə parlament çıxışlarının birində bildirir ki: " Mən bitərəfəm, heç bir siyasi firqəni təmsil etmirəm. Amma etiraf etməliyəm ki,İstiqlaliyyətimizin qazanmasında ən böyük rol oynayan firqə " Müsavat" fiqrəsidir. Çünki " Müsavat" milli mənfəətlərini hər zaman firqə mənfəətlərinin üstündə tutdu". Birdə indimizdə yağışdan sonra göbələklər kimi artan və aybaay paket almaq üçün iki cüt bir tək adamıyla qeydiyyatdan keçən partiya və onun " liderciklərinə" baxın.

Hələ Xoyskinin 1918-ci il 7 dekabrda parlamentin açılışndakı nitqi iradında böyük həyəcanla müstəqil Cümhuriyyətimizə işarə edərək : " Yatsa idik yuxumuza da girməzdi "sözlərini xatırlayın. Bu yuxunu çin edən, Uca Milli İstiqlal Məfkurəsinə çevirən məhz Rəsulzadə və onun liderliyni yapdığı " Müsavat" firqəsi oldu. Amma Əmin Bəy heç zaman firqəsini müstəqil Azərbaycanın üzərinə çıxarmadı. Bu insanın Azərbaycan İstiqlaliyyətinə dönməz bir iradəylə bağlılığına aşağıdakı sitatdan boylanın, belə bir düşüncə tərzini kimsə bu səmimiyyətdə, dürüstlükdə daşımadı tariximizdə heç bir zaman:

" Azərbaycan dövri-istiqlalına bolşeviklər «MÜSAVAT DÖVRÜ» deyirlər. Fəqət, xalq bu dövrə AZƏRBAYCAN DÖVRÜ deyir. gXalqın düşüncəsində AZƏRBAYCAN məfhumu coğrafi bir mənadan ziyadə fikir və əməl şəklində təcəssüm ediyor. İstiqlal xaricində onun üçün bir Azərbaycan yoxdur."

Rəsulzadə siyasi fəaliyyətin canlı orqanizmi kimi sağlam milli-demokratik təməllər üzərində yaranmış siyasi firqələrin(partiyaların-M.İ.) yaranmasında görürdü. " Müsavat" firqəsinin təsisinədək Rəsulzadə " Hümmət" müsəlman sosial- demokrat təçkilatının yaradıcılarından biri idi, Bakıda " Nicat" xeyriyyə cəmiyyətində maarifçilik fəaliyyətinin önündə, İrana mühacirət illərində İran Demokrat Partiyasının ideoloqlarından və mətbu orqanının rəhbəri idi.Xalqın



siyasi cəhətdən yetkinləşməsi üçün sağlam bir şəkildə vahid cəbhədə pariyalaşmağı zəruri hesab edərək 1917-ci ildə " Açıq söz" də yazırdı ki:

"Siyasi firqələri olmayan bir millətin siyasi duyğusu, siyasi düşüncəsi olamaz.

***Siyasət meydanına hər milləti siyasi firqələr çıxarar, siyasi fikirlər siyasi firqənin timamı ilə (səyilə) xalq arasında intişar tapar. Fəqət bir firqə xalqın hüsni-rəğbətini o vaxt qazanar, milləti öz başına o vaxt toplaya bilər ki, cəmaətin milli amal və arzularına müvafiq proqramı yürüdərək təşkili təbiətə (həyata) yaxın olsun".***

***XX əsrin əvvəllərindən başlayan Türkçülük hərəkatının bütün elm,siyasət cəbhəsində vuruşan nümayəndələrinin çarizmin yürütdüyü müstəmləkə siyasətə qarşı mütəşəkkil təşkilatlanma enerjiləri olduqca heyrətamizdir,bu ziyalılar indimizdəkilərdən fərqli olaraq zamanı gözləmirdilər,əksinə zamanı beyinlərində,xəyallarında qurduqları yüksək ideallara daşıyırdılar və gerçəkləşdirirdilər qorxmadan,çəkinmədən.***

Hələ onların elmi qamçılayan,xurafat yayan dini mədrəsə təhsili mühitində sekulyar dövlət quruluşu uğrunda mübarizələri ayrıca bir novator, fenomenal,radikal intibah səviyyəsində mühüm bir hadisədir.Yəni onların xanzadə,bəyzadə,axund balası olub bu komfortu əlinin tərsiylə itələyib,hürriyyət və istiqlalyyət kimi bəşəri idealların seçimini etməsi sayəsində Fədaidən-Difai-Difaidən-Müsavat-Müsavatdan-AZƏRBAYCAN CÜMHURİYYƏTİ yarandı.

Bəlkə bizlərdə xalqın düşüncəsində fikir və əməl şəklində təcəssüm edən bir AZƏRBAYCAN DÖVRÜNÜ başladaq?!

Ayaqqabılar və yeriş əksik deəmg.

Rəsulzadənin Cümhuriyyətimizə Azərbaycan adı qazandırması da başqa bir xüsus. Cümhuriyyətin yaranması dövründə müstəqillik məsələsində fikirlər çox çatışırdı. Hətta Əhməd Bəy Ağaoğlu belə qatı bir ilhaqçı mövqeyində idi, diqtəsi bu idi ki: Osmanlının tərkibində olaq bitsin bu məsələ. Bu mənada da Rəsulzadə və Dava Arkadaşlarının ( bu məsələdə Nəsib Bəy Yusifbəylinin möhtəşəm bir rolu vardır-M.İ.) sözü Rəsulzadəyə verək:

" Ah, Azərbaycan! Biz sənin haqqını tələb etmək deyil, yalnız adını söyləmək üçün nə qədər məruzələrə rast gəldik, nə qədər töhmətlərə məruz qaldıq!

Azərbaycan muxtariyyəti diyorduq: soldan və sağdan hər növ hücuma məruz qalırdıq.

Biz, Azərbaycan torpaqlarını qızdıran ataşi-müqəddəsi köksü-

***İttihadi islamın yerinə İttifaqi İslam ideyası bir sözlə möhtəşəmdir, həmin dönəmdə qəbul etdirilməsi ən zor olan bir mərhələydi. Rəsulzadə buna müvəffəq ola bilmişdir. Hətta Orta Asiyada, Türküstanda ( Ə.Z.Vəlidi Toğan və Mirseyid Sultanqaliyev) federal prinsiplər əsasında müstəqil dövlət qurmaq ideyası belə öz qaynağını Rəsulzadədən almışdır. Düzdür Rusiya çatısı altında müsəlman və türklərə azadlıqlar tanınması Qaspıralı başlatmışdı. Amma bunu milli məhəlli muxtaryyət ideyasına çevirib Rusiya Müsəlmanları qurultayında möhtəşəm çıxışlarıyla qalibiyyətə çevirən 33 yaşlı M.Ə. Rəsulzadə oldu***

(ardı gələn sayımızda)